Ən çox oxunan qəzet

№ 123 (4818), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

12 iyul
(cümə axşamı)


## Gəncədə polislərdən birinin qətlində şübhəli bilinən şəxs tutuldu



Hüquq-mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 10-da Gəncə şəhərində baş vermiş qanunsuz aksiyanın ən fəal iştirakçılarından və xidməti vəzifələrini yerinə yetirən polis zabitlərindən birinin qətlində şübhəli bilinən Qasımov Fərrux Xəqani oğlu vətəndaşların yaxından köməkliyi ilə tutularaq istintaqa təhvil verilib.

(Səh.8)

## Xəzərdə 3 nəfər batıb



**Xəzərdə 3 nəfər batıb.** Fövqəladə Hallar Nazirliyinin (FHN) saytının verdiyi xəbərə görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Qaradağ rayonunda dənizdə (ən yaxın xilasetmə məntəqəsindən 1200 metr aralı, nəzarətsiz ərazi) 4 nəfərin batması barədə məlumat daxil olub.

(Səh.9)

# İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti ilə görüşüb



### Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb. Görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi olub.**

Dövlət başçısı Avropa İttifaqının mənzil-qərargahına gəlib. Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk birgə foto çəkdiriblər. Sonra İlham Əliyevlə Donald Tuskun görüşü olub.

(Səh.2)



## Prezident İlham Əliyev NATO ölkələri başçıları üçün təşkil olunan qəbulda iştirak edib

**Dünən Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün qəbul təşkil edilib.**

Azərbaycan prezidenti İlham Əliyev qəbulda iştirak edib.

(Səh.3)

## "Ən sərt şəkildə cəzalanacaqlar"

Əli Həsənov: "Azərbaycanda qarşıdurma yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər"



**"Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir".**

Bu sözləri prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook"da yazıb.

(Səh.3)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## Millətin iradəsi hər şeydən üstündür

Xalq etimad göstərdiyi hakimiyyətin arxasındadır, pozucu qüvvələrə meydan verməyəcək

**İyulun 10-da axşam radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin binası qarşısında ekstremist aksiya keçirməyə cəhd ediblər.** Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanuna zidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər.

(Səh.7)



# NATO Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

(səh.2)